İşıqlı sabahlar üçün, parlaq bir gələcək üçün,
çiçəklənən millət üçün, səsi dünyaya yayılacaq bir
gənclik üçün, düşünərək yaşayanlar üçün, xoşbəxt bir
ailə üçün, sevincli qəlblər üçün, gülən üzlər üçün,
həyat səhifələrimizi parlaq imza sahiblərinin
qələmi ilə yazmaq üçün

parlaq imzalar

Kitabın sahibi: _____

Oxu tarixi: _____

Ürək ver: ♡ ♡ ♡ ♡ ♡

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ

HAQQINDA ƏN MARAQLI

100 FAKT

AYAZ İLYASOV

parlaq İMZALARI

İdeya həmmüəllifi
və elmi redaktor: Bəxtiyar ASLANBƏYLİ *(hüquq üzrə fəlsəfə doktoru)*

Redaktor: Elnur ASTANBƏYLİ

Korrektorlar: İradə MUSALI
Turac ELDARQIZI

Rəssam: Elçin CABAROV

Tərtibatçı: Zülfi XƏLİLOV

Cildin dizayneri: Rəsul HƏSƏN

Ayaz İlyasov
AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ HAQQINDA ƏN MARAQLI 100 FAKT

Bakı, “Parlaq İmzalar” Nəşriyyatı – 2026, 288 səh. / II nəşr

© Ayaz İlyasov / 2025
© Parlaq İmzalar MMC / 2026
Kitabın bütün hüquqları qorunur. İcazəsiz olaraq hər hansı vasitə ilə nəşri və yayımlanması qadağandır.

Parlaq İmzalar Nəşriyyatı | 162

ISBN 978-9952-8671-5

www.parlaqimzalar.az
info@parlaqimzalar.az
/parlaqimzalar
0559697259 / 0559897259

12+

Mətbəə: “AVE PRİNT” MMC
OKTYABR / 2026

Mündəricat

1. İstiqlal Bəyannaməsini kim qələmə alıb? 11
2. Milli Şuranın hansı üzvləri istiqlalın elanı zamanı bitərəf qalmışdı? 14
3. Milli Şura niyə ilk Azərbaycan parlamenti sayılmalıdır? 16
4. Kimlər İrəvanın verilməsinə etiraz etmişdilər? 19
5. Gürcü zabit Milli Şuradan nəyə görə pul almışdı? 22
6. 1918-ci ildə Serbiya bayrağının Xəzər dənizində nə işi vardı? 23
7. Britaniya hərbçiləri hansı yeməkdən şikayətlənirdilər? 25
8. Osmanlı sultanını xoşbəxt edən səbəb nə idi? 29
9. Bakı küləyi Bakının azad olunmasına necə kömək edib? 31
10. Hansı futbol klubunun rəhbəri Qafqaz İslam Ordusunun komandanı ola bilərdi? 33
11. Hansı general "Bakı" sözünü özünə soyad götürmüşdü? 35
12. Niyə dövlət bayrağımız yalnız həftənin birinci və dördüncü günləri qaldırılırdı? 37
13. Hansı məşhur əsər bir dəfə himnimizin əvəzinə istifadə olunub? 39
14. Azərbaycanın Dövlət Himni ilk dəfə nə vaxt səslənib? 41

15. Azərbaycanın Dövlət Gerbini kim yaradıb? 43
16. Hansı orden ilk Azərbaycan ordeni olmalı idi? 45
17. Səməd bəy Mehmandarov kimi
təltif etməməyi tapşırmışdı? 47
18. Hələ AXC-dən öncə Hərbi Nazirliyin
layihəsini hazırlayan generalımız kimdir? 49
19. AXC dövründə hərbi xidmətə çağırış yaşı neçə idi? 51
20. AXC dövründə kimlər orduya çağırılmırdı? 53
21. Niyə generalın əmrində
dolma və bozbaş xatırlanmışdı? 55
22. Ordudakı ovçular kimlər idi? 58
23. AXC ordusu ilə Əmir Teymuru nə birləşdirir? 60
24. Aptek hərbi paraddan necə gəlir əldə etmişdi? 62
25. Qarabağın erməni əhalisi Baş nazir
və hərbi nazirə nə söz vermişdi? 64
26. Hansı AXC zabiti Argentinaya köçmüşdü? 66
27. AXC ordusu hansı ölkədən geyim sifariş etmişdi? 69
28. İtalyanların Azərbaycandakı
sərgüzəştləri haqqında bilirdiniz? 71
29. AXC-nin sualtı qayıq almaq istədiyini bilirdiniz? 75
30. Səməd bəy Mehmandarov parlamentdə
niyə utandığını bildirib üzr istəmişdi? 77
31. Rəsulzadə nəyə etiraz bildirib
parlament salonunu tərk etmişdi? 80
32. Hansı nazirə Azərbaycan dilini
Üzeyir Hacıbəyli öyrədib? 83
33. Hansı AXC məmuru “ağzını şirin etdiyi üçün”
vəzifəsindən kənarlaşdırılmışdı? 86

34. Hansı tanınmış aktyor daxili işlər nazirinin müavini olmuşdu? 88
35. 23 yaşlı gəncin AXC-də daxili işlər naziri olduğunu bilirdiniz? 91
36. Hansı AXC nazirinin özünə pencək almağa imkanı yox idi? 95
37. Baş nazirin evi niyə parlamentdə müzakirə mövzusuna çevrilmişdi? 99
38. AXC-nin Baş nazirinin maddi vəziyyəti necə idi? 102
39. Hansı AXC nazirinə "Uşaq Allahı" deyirdilər? 105
40. Kimə vəzifədə qalması üçün iki dəfə xahiş olunmuşdu? 108
41. AXC zamanı dövlət idarələrində neçə saat iş olurdu? 111
42. Nə üçün Rəsulzadə çıxışında qədim yunan mifologiyasına müraciət etmişdi? 114
43. Rəsulzadənin məşhur ifadəsinin ilkin variantı necə olub? 117
44. Hansı AXC deputatı Tacikistan mətbuatının əsasını qoyanlardan biri olub? 121
45. Bakıda ilk poliklinikanı hansı deputat açıb? 124
46. AXC dövründə kimlər seçkilərdə iştirak edə bilməzdi? 126
47. Hansı məşhur ədibimiz AXC parlamentinin stenoqrafçısı olub? 129
48. Hansı xanım AXC-nin deputatlıq təklifini rədd etmişdi? 133
49. Tağıyevin nəvəsi nə üçün parlamentdən xaric edilmişdi? 136
50. Papiros iclas keçirməyə necə mane ola bilər? 141

51. Rəsulzadə erməni deputatın
hansı fikrinə etiraz etmişdi? 144
52. Niyə deputatlar Don Kixotu yada salmışdılar? 146
53. Hansı AXC deputatı
Rusiya imperatorunu döymüşdü? 148
54. Əkbər ağa Şeyxülislamovun hansı
təklifi deputatların gülüşünə səbəb olmuşdu? 151
55. Nə üçün parlament
avtomobillərindən biri satışa çıxarılmışdı? 153
56. 1918-ci ildə Bakıda avtomobillər üçün
təyin edilmiş maksimal sürət həddi nə qədər idi? 156
57. AXC dövründə tramvayla bağlı
hansı maraqlı təklif irəli sürülmüşdü? 160
58. AXC dövründə nəyi pulsuz etmək istəyirdilər? 163
59. Qatarları tüstüləndirmək nəyə lazımdır? 165
60. AXC zamanında gəmi ilə hara getmək olardı? 168
61. ABŞ Prezidentinin xüsusi nümayəndəsi
generalımızı niyə tərifləmişdi? 170
62. AXC dövründə polisə zəng etmək üçün
hansı nömrəni yığmaq lazım idi? 173
63. Səfirimiz Ermənistanda necə qarət edilmişdi? 177
64. Hansı ölkə AXC ilə birləşmək istəyirdi? 179
65. Başqa ölkənin nazirləri
necə gəlib AXC naziri oldular? 182
66. Pul vahidimiz necə adlana bilərdi? 185
67. Futbol oyunu adamı ağılsız edir ki? 187
68. Gəncə ilə Eyfel qülləsini nə birləşdirir? 192

69. Üzeyir Hacıbəylinin əsərlərinə
kimlər pulsuz baxa bilirdilər? 195
70. AXC dövründə hansı amerikan filmi göstərilmişdi? 197
71. AXC dövründə hansı film çəkilmişdi? 199
72. Domino oynamaq hansı
problemlərə gətirib çıxara bilər? 201
73. Kim küçələrin işıqlandırılmasına qarşı çıxmışdı? 203
74. AXC xristian vətəndaşları üçün
hansı qərarlar qəbul etmişdi? 205
75. AXC dövrünün reklam və elanları
indikilərdən nə ilə fərqlənirdi? 207
76. Bolşeviklər şahın gəlişindən
necə istifadə etmək istəyirdilər? 210
77. Hansı məşhur rəssamımızın babası diktator olub? 213
78. İngilis əlifbasının hansı hərfi
bizim əlifbada da yer ala bilərdi? 215
79. Bakı Dövlət Universitetinin
yaradılması kimin ideyası idi? 218
80. Nə üçün AXC dövründə subaylıq sultanlıq deyildi? 220
81. AXC İstanbulda kimə heykəl ucaltmaq istəyirdi? 222
82. Həsən bəy Zərdabinin oğlu
AXC-də hansı vəzifəni tutub? 224
83. Kim atasının qətlə yetirildiyi
yerin adını özünə təxəllüs kimi götürmüşdü? 226
84. Minlərlə insanı ölümə göndərmiş hansı marşal
AXC-nin xüsusi xidmət orqanlarında çalışıb? 228
85. AXC Türkiyənin İstiqlal
Müharibəsinə necə yardım edib? 230

86. Hacı Zeynalabdin Tağıyev
kağız pulla ianə verənləri niyə məzəmmət edib? 232
87. Tağıyev AXC hökumətinə hansı iradları bildirmişdi? 235
88. AXC-nin "ən uzaqgörən" şəxsi kim idi? 238
89. Sülh konfransındakı nümayəndə
heyətimiz hansı hotellərdə qalıb? 240
90. Kommunikasiya çətinliyi
hansı problemlər yaradırdı? 244
91. Hansı mühüm hadisənin tarixini yanlış bilirik? 246
92. AXC nümayəndə heyəti hansı
məşhur ingilis siyasətçi ilə görüşmüşdü? 248
93. Topçubaşov nəyə 5 min dollar xərcləmişdi? 251
94. Topçubaşov öldürülmüş Baş nazirə
nə üçün hələ də məktub yazırdı? 253
95. Nümayəndə heyətinin hansı üzvü
Azərbaycana 53 il sonra gəlmişdi? 256
96. Bilirdiniz ki, bolşeviklərin
güllələdiyi ilk AXC naziri qeyri-azərbaycanlı olub? 260
97. Yeyib-içmək generalın
həyatını necə məhv edə bilərdi? 262
98. AXC-nin sonuncu qonağı niyə həbs olundu? 264
99. Parlamentin sonuncu iclasında kim ağlayıb? 266
100. Məşhur serial AXC tarixindən necə ilhamlanıb? 269
İstifadə olunmuş mənbələr 271

001

İstiqlal Bəyannaməsini kim qələmə alıb?

28 May – Azərbaycan Respublikasının doğum günüdür. İstiqlal Bəyannaməsi isə onun doğum haqqında şəhadətnaməsidir. Tarixdə ilk dəfə məhz 1918-ci ildə "Azərbaycan" sözü coğrafi anlam daşımaqla yanaşı, siyasi məna kəsb etməyə başladı.

Bakının İstiqlaliyyət küçəsində Azərbaycan Milli Elmlər Akademiyasının Əlyazmalar İnstitutunun binası ilə Azərbaycan Dövlət İqtisad Universitetinin binası arasında ucaldılmış İstiqlal abidəsini, yəqin ki, görmüsünüz. Abidəyə diqqət edənlərdə bir sual yarana bilər: "Niyə orada Məhəmməd Əmin Rəsulzadənin adı yoxdur?" Bu sualın cavabı sadədir. Tarixi sənədin imzalandığı gün Rəsulzadə Tiflisdə deyildi. O, Batum konfransında ölkəmizi təmsil edirdi.

Rəsulzadə imzalanma mərasimində iştirak etməsə də, İstiqlal Bəyannaməsinin ideya müəllifidir. Professor Qulu Məhərrəmli "Məmməd Əmin Rəsulzadə" kitabı və "İstiqlal



Bəyannaməsinin müəllifi kimdir?" məqaləsində bu barədə ətraflı şəkildə bəhs edib. Q. Məhərrəmli yazır ki, Rəsulzadə bəyannaməni və yaradılması nəzərdə tutulan Milli Şurada oxunacaq məktubu Nəsib bəy Yusifbəyliyə verərək gecə ilə onu Tiflisə yola salmışdı. Mayın 26-da Azərbaycanın Tiflisdəki nümayəndələri, yəni Zaqafqaziya Seyminin müsəlman fraksiyası Rəsulzadənin fikirləri ilə tanış olmuşdular.

Onu da deyim ki, 1918-ci ildə bu sənəd İstiqlal Bəyannaməsi adlanmırdı. Ona Əqdnamə və ya Misaqi-milli deyirdilər.

İstiqlal Bəyannaməsini qəbul edən Milli Şura 44 üzvdən ibarət idi. 1918-ci il mayın 28-də keçirilmiş tarixi iclasda isə onlardan yalnız 26 nəfəri iştirak edirdi. Lakin İstiqlal Bəyannaməsində cəmi 8 nəfərin imzası var: Həsən bəy Ağayev, Fətəli xan Xoyski, Nəsib bəy Yusifbəyli, Camo bəy Hacınski, Şəfi bəy Rüstəmbəyli, Cavad Məlik-Yeqanov, Mustafa Mahmudov, Nəriman bəy Nərimanbəyov.

İclasda Rəhim bəy Vəkilov da iştirak etmişdi. Rəhim bəy sənədə qol çəkməsə də, digər mühüm məqamla tarixə keçib. Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) yaranması haqqında sənədi 21 yaşlı bu gənc yazıb. Azərbaycan ədəbiyyatına görkəmli şair və yazıçılar bəxş etmiş Vəkilovlar nəslinin nümayəndəsi olan Rəhim bəyin İstiqlal Bəyannaməsini qələmə alması əbəs yerə deyildi. O, gözəl rəsmlər çəkirdi. Hətta çoxları Rəhim bəyin gələcəkdə böyük rəssam olacağını düşünürdü. Ancaq onun "ən böyük əsəri" məhz İstiqlal Bəyannaməsidir.

Rəhim bəy Vəkilov AXC parlamentinin deputatı da olub. Həmin dövrdə o ən gənc deputat idi. Maraqlıdır ki, Rəhim bəy Vəkilov həm də AXC tarixinə dair ilk əsərlərdən birinin müəllifidir. O, 1920-ci ildə rus dilində "Azərbaycan Respublikasının yaranma tarixi" adlı oçerk qələmə almışdı.

002

Milli Şuranın hansı üzvləri istiqlalın elanı zamanı bitərəf qalmışdı?

Zaqafqaziya Seyminin müsəlman fraksiyası və Azərbaycan Milli Şurası iclaslarının protokolları çap olunub. Orada 35 iclasın hər birində müzakirə edilən məsələlər öz əksini tapıb. Ən maraqlı və diqqətçəkən məqamlar, sözsüz ki, 1918-ci ilin 28 may günü ilə bağlıdır. Axı məhz həmin gün Azərbaycanın müstəqilliyi elan olunmuşdu.

Protokolda qeyd edilir ki, Milli Şura üzvü Xəlil bəy Xasməmmədov Azərbaycanın müstəqil respublika elan edilməsinin vacibliyini və təxirəsalınmazlığını vurğulamışdı. Maraqlıdır ki, cümhuriyyətin ilk Baş naziri olacaq Fətəli xan Xoyski fərqli fikir səsləndirmişdi. O, yerlərdə bir sıra məsələlər aydınlaşdırılana qədər Azərbaycanın müstəqilliyinin elanını təxirə salmağı, digər ölkələrlə sülh danışıqları aparmaq üçün tamhüquqlu hökumət yaratmağı təklif edirdi. Həm Fətəli xan, həm Xəlil bəy ixtisasca hüquqşünas idilər. Fətəli xanın bütün prosedurlara riayət etmək istəyini hüquq təhsili ilə izah etmək olar. Lakin

onun hüquqşünas həmkarı effektiv hərəkətlərin tərəfdarı idi. Əksəriyyət Xasməmmədovun təklifini dəstəklədi. Tarixi iclasda iştirak edən 26 nəfərdən 24-ü Azərbaycanın müstəqilliyinin lehinə səs verdi. Lehinə səs verənlərin arasında Fətəli xan Xoyski də vardı. Müzakirələr zamanı fərqli təşəbbüslərlə çıxış etsə də, o, istiqlalımıza "hə" dedi.

Həmin gün yalnız 2 nəfər bitərəf qalmışdı. Söhbət Sultan Məcid Qənizadə və Cəfər Axundovdan gedir. Təəssüf ki, protokolda onların niyə bitərəf qalması haqqında qeyd yoxdur. Xüsusən Qənizadənin səbəbi maraqlıdır.

Məsələ burasındadır ki, Rəsulzadə Sultan Məcid Qənizadənin şagirdi olmuşdu. Cümhuriyyət lideri ilk təhsilini Qənizadənin müdirlik etdiyi İkinci Rus-Tatar məktəbində almışdı. Bildiyimiz kimi, Rəsulzadə İstiqlal Bəyannaməsinin imzalandığı tarixi iclasda iştirak edə bilməyib. Çox maraqlıdır, əgər iştirak etsəydi, müəllim öz şagirdinin gözlərinə baxaraq yenə bitərəf qalardımı? Əfsus ki, bunu heç vaxt bilməyəcəyik.

İstiqlal Bəyannaməsinə bitərəf qalsa da, dövrünün tanınmış maarif xadimi öncə Milli Şurada, sonra isə Cümhuriyyət parlamentində iştirakını davam etdirmişdi. O hətta bir müddət parlamentin sədr müavinlərindən olmuşdu.

İstiqlal Bəyannaməsinə bitərəf qalan ikinci şəxs – Cəfər Axundov isə fərqli mövqe tutmuşdu. İstiqlalın elanından 3 gün sonra Milli Şuradan çıxan və marksist ideyaların daşıyıcısı olan Axundov AXC dövründə Gürcüstanda yaşamışdı. Milli Şuranın keçmiş üzvü yalnız Azərbaycan bolşeviklər tərəfindən işğal ediləndən sonra vətəninə gəlmişdi. Maraqlıdır ki, bolşeviklərə ürəklə xidmət etmiş Cəfər Axundov 1928-ci ildə onların partiyasından qovulmuşdu.